Naxçıvan Muxtar Respublikasında 1 iyun 2018-ci il tarixə 27104,5 hektar sahədə yazlıq bitkilər əkilmişdir.

2018-ci ilin yanvar-may aylarında muxtar respublika üzrə diri çəkidə 8969 ton ət, 35589,2 ton süd, 48849,8 min ədəd yumurta istehsal edilmişdir. 2017-ci ilin yanvar-may ayları ilə müqayisədə ət istehsalı 5,1 faiz, süd istehsalı 1,4 faiz, yumurta istehsalı 1,1 faiz artmışdır.

Muxtar respublikanın kənd və balıqçılıq təsərrüfatlarında 52 milyon 123 min 800 manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2017-ci ilin yanvar-may ayları ilə müqayisədə 3,5 faiz çoxdur.